UOT 336
JEL O17

QULİYEV H.E., doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti
Azərbaycan Respublikası Vergilər Nazirliyi

AZƏRBAYCANDA KÖLGƏ İQTİSADİYYATININ MİQYASININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi: Nağd pul nisbəti metodu və nağd pula tələb modelindən istifadə edərək Azərbaycanda kölgə iqtisadiyyatının həcmini müəyyənləşdirmək.

Metodologiya: Ekonometrik analiz.

Əsas nəticələr: Kölgə iqtisadiyyatı qlobal xarakter daşıyır və bütün ölkələrdə müşahidə olunur. Dünyanın ən yüksək inkişaf etmiş ölkələrində belə kölgə iqtisadiyyatına rast gəlinir. Nağd pul nisbəti metodu vasitəsilə Azərbaycanda kölgə iqtisadiyyatının miqyası müəyyənləşdirilmiş və illər üzrə dinamikası göstərilmişdir. Nağd pul nisbəti metoduna əsasən 2018-ci ildə Azərbaycanda kölgə iqtisadiyyatı rəsmi ÜDM-in 31%-ni təşkil etməklə 1993-cü ildən sonra ən aşağı dəyərini almışdır. Təhlil olunan dövr ərzində fiskal siyasətin pro-tsiklik istiqamətdə olması səbəbindən nağd pula tələb modeli vasitəsilə kölgə iqtisadiyyatının miqyasının müəyyən edilməsi mümkün olmamışdır.

Açar sözlər: kölgə iqtisadiyyatı, vergidən yayınma, monetar yanaşma, nağd vəsaitlər, reqressiya modeli.

GİRİŞ

Kölgə iqtisadiyyatı iqtisadi ədəbiyyatlarda bir neçə oxşar terminlərlə əvəzlənir. Gizli iqtisadiyyat, müşahidə olunmayan iqtisadiyyat, qeyri-rəsmi iqtisadiyyat və qara iqtisadiyyatı buna misal göstərmək olar (Leandro və b.2018). Kölgə iqtisadiyyatı dedikdə rəsmi ümumi daxili məhsuldan (ÜDM) kənarda qalan iqtisadi fəaliyyət başa düşülür. Kölgə iqtisadiyyatının fundamental strukturunu daha dərindən anlamaq məqsədilə onu dörd istiqamətə bölmək olar. Birinci istiqamət qanuni fəaliyyətdən gəlirlərin bilərəkdən gizlədilməsidir. Bu adətən vergi və sosial öhdəliklərdən tam yayınmaq məqsədilə potensial vergi ödəyicisinin vergi orqanında qeydiyyata durmaması nəticəsində baş verir. Həmçinin, vergi ödəyicisinin dövlət büdcəsi qarşısındakı öhdəliklərini qismən yerinə yetirmək üçün gəlirlərinin müəyyən hissəsini gizlətməsi kölgə iqtisadiyyatının formalaşmasına zəmin yaradır. Təsərrüfat subyektlərində əmək müqaviləsi olmadan işçilərin muzdlu işə cəlb olunması kölgə iqtisadiyyatında geniş yayılmış praktikadır. İkinci istiqamət qanunla qadağa olunmuş fəaliyyətdən dövriyyələrin gizlədilməsidir. Narkotik ticarəti və insan alveri, habelə istehsalı lisenziya tələb edən, lakin lisensiyasız fəaliyyətlə məşğul olan subyektlər kölgə iqtisadiyyatının digər komponentidir. Üçüncü istiqamət ev təsərrüfatlarının istehlak məqsədilə istehsal etdiyi məhsullar və xidmətlərdir ki, bu fəaliyyət tamamilə qanunidir, gizlədilməsinə heç bir ehtiyac yoxdur. Lakin, ev təsərrüfatları arasında olan əməliyyatlar müşahidə oluna bilmədiyinə görə milli hesablar sistemində qeyd olunmur. Kölgə iqtisadiyyatının sonuncu seqmenti milli hesablar sistemininin uçotundan məsul olan müvafiq qrumların statistik hesabatları düzgün aparmaması və ya hesabatlılığı təmin edərkən yalnış praktikadan istifadə etməsi, eləcə də hər hansı fəaliyyətin əhəmiyyətinin düzgün qiymətləndirməyərək ümumiyyətlə həmin fəaliyyəti nəzərə almaması ola bilər (OECD 2012).

2014-cü ilin ortalarından neftin dünya bazar qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşməsi 2015-ci ilin fevral və dekabr aylarında ölkədə iki ardıcıl devalvasiyanın baş verməsi ilə yadda qaldı. Neftin qiymətinin volatilliyi neft ixrac edən ölkələrdə, o cümlədən Azərbaycanda ondan asılılığın aradan qaldırılmasını və ya azaldılmasını şərtləndirir. Bununla əlaqədar olaraq, dövlətin maliyyə imkanlarını artırmaq və ya vergitutma bazasının genişləndirmək son dövrlərdə aktual məsələyə çevrilmişdir. Büdcə daxilolmalarını artırmağın əsas yollarından biri kölgə iqtisadiyyatının əhatə

dairəsinin azaldılması və nəticə etibarilə müxtəlif sektorlar üzrə kölgə iqtisadiyyatında fəaliyyət göstərən sahibkarlıq subyektlərini vergitutma bazasına cəlb etməkdir.

Kölgə iqtisadiyyatının ölçülməsi və ya əhatə dairəsinin müəyyənləşdirilməsi olduqca mürəkkəb məsələdir. Belə ki, kölgədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin rəsmi iqtisadiyyata cəlb edilməsi, o cümlədən onların aşkarlanaraq uçota salınması həmin sahibkarlıq subyektləri üçün arzu olunan hallar deyil. Bu səbəbə görədə onlar fəaliyyətlərinin nəzarətsiz zonada qalması üçün bütün mümkün mexanizmlərdən istifadə edirlər. Vergi orqanları üçün isə vergi mükəlləfiyyəti olan şəxslərin tam şəkildə müəyyənləşdirilməsi, habelə audit edilməsi məhdud vaxt və resurslar çərçivəsində birbaşa metodlarla mümkün deyildir. Bununla əlaqədar olaraq, kölgə iqtisadiyyatının miqyasının qiymətləndirilməsi üçün bir neçə eknometrik modellər və monetar yanaşma metodlarından istifadə edilir ki, bu hesablamalarda öz növbəsində təxmini nəticələr verir.

Ədəbiyyat araşdırması

İqtisadi ədəbiyyatlarda kölgə iqtisadiyyatının miqyasının qiymətləndirilməsi ilə əlaqədar bir neçə metodlar mövcuddur. Bunlardan ən çox istifadə olunan metod monetar yanaşma metodudur. Monetar yanaşmanın əsas mahiyyəti ondan ibarətdir ki, əməliyyatların rəsmi hesabatlarda qeydə alınmaması və vergidən yayındırılması üçün nağd vəsaitlərdən istifadə olunur. Belə ki, nağd pulun izlənilməsi çətindir və demək olar ki, qeyri-mümkündur və bu səbəbə görədə nağd pul kölgə iqtisadiyyatı üçün əsas vasitə hesab olunur (Hildegart və b.2008).

Monetar yanaşma metodu hesab olunan nağd pul nisbəti metodu ilk dəfə Peter Gutmann tərəfindən 1937-1976-cı illəri əhatə etməklə ABŞ-da kölgə iqtisadiyyatının miqyasını qiymətləndirmək məqsədilə istifadə edilmişdir. Peter Gutmann ikinci dünya müharibəsindən əvvəlki dövri, yəni 1937-1941-ci illərin 5 illik orta göstəricisini (həmin dövrdə gəlir vergisi məqbul səviyyədə idi) baza ili kimi nəzərdə tutmuş və 1976-cı ildə ABŞ-da ÜDM-in 10% həcmində kölgə iqtisadiyyatının olduğunu göstərmişdir (Gutmann 1977).

Azərbaycanda Elşən Bağırzadə monetar yanaşma metodu hesab olunan Gutmann metodundan istifadə edərək, 1991-2006-cı illər ərzində ölkənin kölgə iqtisadiyyatının kəmiyyət qiymətləndirməsini tədqiq etmişdir (Bağırzadə 2007).

Bundan başqa, Fredrix Şinayder və Leyandro Medina tərəfindən 1991-2015-ci illəri əhatə edən dövrdə 158 ölkə üzrə kölgə iqtisadiyyatı MIMIC modeli vasitəsilə qiymətləndirilmişdir. Həmin tədqiqatda Azərbaycan üzrə kölgə iqtisadiyyatının miqyası təhil olunmuş və illər üzrə dinamikası göstərilmişdir (Leandro və b. 2018).

1980-ci ildə Vito Tanzi ABŞ-ın kölgə iqtisadiyyatını qiymətləndirmək məqsədilə monetar yanaşmanın daha mürəkkəb forması hesab olunan nağd pula tələb modelindən istifadə edərək 1929-1976 illər üzrə ölkədə kölgə iqtisadiyyatının əhatə dairəsini təhlil etmişdir (Tanzi 1980).

Vito Tanzinin nağd pula tələb modelindən ilk dəfə Himayədar Araşdırmalar Mərkəzi, Fredrix Şinayder və sonralar Elşən Bağırzadə istifadə edərək Azərbaycanda kölgə iqtisadiyatının miqyasını təhlil etmişlər (Bağırzadə 2008). Lakin, Tanzi metodu vasitəsi ilə Azərbaycanda kölgə iqtisadiyyatını ölçmək məqsədilə aparılmış hər üç tədqiqat 2007-ci ilə qədər dövrü əhatə edir.

Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatının genişlənməsi 2005-ci ildən başlayıb, ekspansiya dövrünü əhatə etməklə kölgə iqtisadiyyatının miqyasının qiymətləndirilməsinin yenidən aparılmasına zərurət yaranmışdır.

Yuxarıda qeyd olunanlarla əlaqədar, biz ən son məlumatlar üzərindən Peter Gutmanın nağd pul nisbəti metodu və Vito Tanzinin nağd pula tələb modelindən istifadə edərək Azərbaycanda kölgə iqtisadiyyatının əhatə dairəsini qiymətləndirəcəyik.

Nağd pul nisbəti metodu

İlkin nəzəri müdəaları 1956-cı ildə Cagan tərəfindən formalaşdırılan və 1977-ci ildə Gutmanın irəli sürdüyü nağd pul nisbətinə əsaslanan monetar yanaşmada dövriyyədə olan nağd pulların tələbli depozitə nisbəti kölgə iqtisadiyyatın qiymətləndirilməsində əsas rol oynayır. Belə ki, nağd pulun tələbli depozitə nisbətinin artımı kölgə iqtisadiyyatında dövr edən nağd pulların çoxalması ilə əsaslandırılır. Gutmanın metoduna görə rəsmi ÜDM-də kölgə iqtisadiyyatının payının müəyyən etmək üçün qiymətlənirilən dövrdə nağd pulun tələbli depozitə nisbətinin minimum dəyəri baza ili kimi götürülür və nəzərdə tutulur ki, həmin nisbətin minimum dəyəri aldığı vaxtda ölkədə gizlədilmiş

iqtisadiyyat yox səviyyəsindədir. Baza ili müəyyənləşdirildikdən sonra cari ildəki nağd pulun tələbli depozitə nisbəti tapılır və bu iki dövr arasındakı nisbətlərin fərqi kölgə iqtisadiyyatında dövr edən nağd pulların həcmini müəyyənləşdirmək üçün cari dövrün tələbli depozitinə hasil edilir. Sonda isə kölgə iqtisadiyyatında dövr edən nağd vəsaitlər pulun tədavül sürətinə vurularaq kölgə iqtisadiyyatının həcmi müəyyənləşdirilir.

Gutmann metodunun mənfi cəhəti ondan ibarətdir ki, dövriyyədə olan nağd pulların artımı zamanı iqtisadi inkişaf, inflyasiya göstəricisi və banklara olan inamın azalması faktoru nəzərə alınmır. Bundan başqa, pulun tədavül sürətinin hər iki sektorda eyni olması, eləcə də mübahisə mövzusu olan "baza ili" anlayışı metodun əsas mənfi tərəfləridir (Bağırzadə 2007).

Nağd pul nisbəti metodunun hipotezi aşağıdakı kimidir.

- Pulun tədavül sürəti ÜDM-in pul təklifinə (M1) nisbəti formasında hesablanır və nəzərdə tutulur ki, rəsmi və kölgə iqtdisadiyyatında pulun tədavül sürəti eynidir (V_o=V_u).
- Dövriyyədə olan nağd vəsaitlər rəsmi və kölgə iqtisadiyyatında istifadə olunan pul vəsaitlərinin cəminə bərabərdir (C=C_o+C_u).
- ($\frac{C}{D}$=K) K-nın artımı kölgə iqtisadiyyatının artımı ilə nəticələnir.
- Baza ilində kölgə iqtisadiyyatının olmadığı nəzərdə tutulur ($\frac{C}{D}$ = $\frac{C_o}{D}$) və K_o ən kiçik dəyər alır.
- Kölgə iqtisadiyyatında istifadə olunan pullar dövriyyədə olan nağd vəsaitlərdən rəsmi-iqtisadiyyatda istifadə olunan nağd vəsaitləri çıxmaqla tapılır (C_u= C-C_o).
- Nəzərə alsaq ki, kölgə iqtisadiyyatı və rəsmi-iqtisadiyyatda istifadə olunan pulların dövretmə sürəti eynidir, belə olan halda kölgə iqtisadiyyatında olan pul kütləsini tədavül sürətinə hasil etməklə kölgə iqtisadiyyatının həcmi müəyyənləşdirilir (Gutmann 1977). Kölgə iqtisadiyyatının hesablanması düstur 1-də göstərilmişdir.

$$Y_u=Y_0 \times \frac{(C-K_0 \times D)}{C+D}=Y_0 \times \frac{(C-K_0 \times D)}{M_1} \qquad (1)$$

$Y_u -$ ÜDM (kölgə iqtisadiyyatı)
Y_0- ÜDM (rəsmi iqtisadiyyat)

Yuxarıdakı cədvəldən göründüyü kimi, C/D və ya K_o ən kiçik dəyərə 1992-ci ildə malik olur və bu səbəbə görədə həmin il baza ili hesab olunur. Gutmann metoduna əsasən Azərbaycanda kölgə iqtisadiyyatının ən yüksək göstəricisi rəsmi ÜDM-in 77%-ni təşkil etməklə 2001-ci ildə qeydə alınıb. 2018-ci ildə kölgə iqtisadiyyatı rəsmi ÜDM-in 31%-ni təşkil etməklə 1993-cu ildən sonra ən aşağı qiymət almışdır. Bunu onunla əlaqələndirmək olar ki, ötən ildə vergi inzibatçılığında bir sıra yeni yanaşamalar və dəyişikliklər həyata keçirildi. Habelə, vergi ödəyiciləri ilə münasibətlərin təkmilləşdirilməsi, onların düzgün və tam şəkildə könüllü vergi bəyannamələrinin təqdim etmələrinin dəstəklənməsi, eləcə də zəruri hesab edilməyən vergi nəzarəti tədbirlərinin saylarının dəfələrlə azaldılması və riskli vergi ödəyicilərinin audit seçiminin təkmil risk modelləri əsasında qurulması kölgə iqtisadiyyatının 2018-ci ildə əhəmiyyətli dərəcədə azalmasına səbəb kimi göstərmək olar.

Qiymətləndirilən dövrü 3 hissəyə bölmək olar. Birinci dövr-1991-2004-cü il: Ölkədə iqtisadi sabitliyin bərpa olunduğu ilk illərdən neft gəlirlərinin iqtisadiyyata əhəmiyyətli səviyyədə daxil olmadığı və ya fiskal ekspansiyanın baş vermədiyi dövr. Bu mərhələdə kölgə iqtisadiyyatının 14 il üzrə orta göstəricisi 54% təşkil edir. İkinci dövr-2005-2014-cü il**:** Fiskal genişlənmə və ya "bum" dövrü. İkinci dövr dünya bazarında neftin qiymətinin kəskin düşməsi ilə əlaqədar sona çatır. Bu mərhələdə kölgə iqtisadiyyatının orta illik göstəricisi 62% təşkil edir. Üçüncü dövr-2015-ci ildən bu günə qədər: 2015-ci ildə ölkədə iki ardıcıl devalvasiya baş verdi və iqtisadiyyatda müəyyən durğunluqlar yarandı, nəticədə post-neft dövrü başladı. 2016-cı ildə ölkə iqtisadiyyatının strateji yol xəritəsinin hazırlanması və bu sahədə islahatların həyata keçirilməsi iqtisadiyyatı müəyyən qədər oksigenlə təmin etdi, nəticədə iqtisadi artım bərpa olundu. Müsbət haldır ki, qiymətləndirmənin üçüncü dövründə əvvəlki dövrlərlə müqayisədə kölgə iqtisadiyyatının miqyası azalmış və ortalama rəsmi ÜDM-in 43%-ni təşkil etmişdir.

Cədvəl 1. Azərbaycanda kölgə iqtisadiyyatının dinamikası, mln manat, [Baza ili 1992, K_o=0.8]

İllər	Banklardan kənar nağd pul dövriyyəsi (M(0) və ya C)	Tələbli depozitlər	C/D	ÜDM	Rəsmi iqtisadiyyatda dövr edən nağd pullar (K_0*D)	Kölgə iqtisadiyyatda dövr edən nağd vəsaitlər C_u=(C-C_o)	Tədavül sürəti	Kölgə Iqtisadiyyatı	ÜDM-də kölgə iqtisadiyyatının payı
1991	0,6	0,1	6	0,5	0,1	0,5	1	0,4	74%
1992	0,8	1	0,8	4,8	0,8	0,0	3	0,0	0%
1993	7,7	6,1	1,3	31	5	3	2	6	20%
1994	55,2	25	2,2	375	20	35	5	164	44%
1995	120	65	1,9	2 134	52	69	12	794	37%
1996	173	62	2,8	2 733	49	124	12	1 441	53%
1997	234	73	3,2	3 158	59	175	10	1 800	57%
1998	185	55	3,3	3 441	44	141	14	2 017	59%
1999	227	51	4,5	3 775	41	187	14	2 533	67%
2000	270	46	5,9	4 718	36	234	15	3 493	74%
2001	294	44	6,7	5 316	35	259	16	4 077	77%
2002	334	60	5,6	6 063	48	286	15	4 406	73%
2003	408	92	4,5	7 147	73	335	14	4 789	67%
2004	478	180	2,7	8 530	144	334	13	4 337	51%
2005	547	200	2,7	12 523	160	387	17	6 482	52%
2006	1 311	528	2,5	18 037	423	889	10	8 714	48%
2007	2 714	908	3,0	26 815	727	1987	7	14 711	55%
2008	4 146	959	4,3	40 137	767	3379	8	26 562	66%
2009	4 175	1 065	3,9	34 579	852	3323	7	21 928	63%
2010	5 456	1 263	4,3	41 575	1 010	4445	6	27 506	66%
2011	7 158	1 638	4,4	50 069	1 310	5848	6	33 288	66%
2012	9 257	1 865	5,0	54 744	1 492	7764	5	38 216	70%
2013	10 459	2 278	4,6	58 182	1 823	8636	5	39 449	68%
2014	10 152	2 678	3,8	59 014	2 142	8010	5	36 843	62%
2015	4 776	2 121	2,3	54 380	1 697	3079	8	24 275	45%
2016	6 377	2 583	2,5	60 425	2 067	4310	7	29 066	48%
2017	7 490	3 054	2,5	70 135	2 443	5047	7	33 571	48%
2018	7 601	4 673	1,6	79 797	3 739	3863	7	25 112	31%

Mənbə: Cədvəl Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.

Nağd pula tələb modeli

Modelin fərziyyəsi ondan ibarətdir ki, kölgə iqtisadiyyatı yüksək vergi dərəcələri səbəbindən yaranır və dövriyyədə olan nağd pullar kölgə iqtisadiyyatını formalaşdıran əsas vasitədir. Buna görədə nağd pula tələb artıqca kölgə iqtisadiyyatının miqyasının da artması gözlənilir. Dövriyyədə olan nağd pulların çoxalmasına iqtisadi artım, əmanət faizlərinin aşağı düşməsi, habelə əmək haqqı və maaşların milli gəlirdə yüksəlməsi təsir etdiyinə görə sərbəst dəyişənlər kimi modelə daxil

edilmişdir. Tanzi metoduna əsasən kölgə iqtisadiyyatının yaranmasına yalnız yüksək vergi dərəcələri səbəb olduğuna görə vergi yükünün olmadığı zaman nağd pullara tələb ilə vergi yükünün olduğu vaxtda nağd pullara tələb arasındakı fərq kölgə iqtdisadiyyatında dövr edən nağd pullar kimi nəzərdə tutulur (Tanzi 1983).

Tanzi metodunun bir neçə mənfi cəhətləri mövcuddur. Belə ki, kölgə iqtisadiyyatında bütün əməliyyatlar nağd pulla aparılmır. Arne Isachsen və Steinar Stromun 1980-ci ildə Norveç iqtisadiyyatı üzrə həyata keçirdiyi tədqiqatlar nəticəsində məlum olmuşdur ki, kölgə iqtisadiyyatında əməliyyatların təxminən 80%-i nağd şəkildə aparılır. Bu səbəbə görədə, barter əməliyyatları iqtisadi əməliyyatlarda nəzərə alındığı zaman kölgə iqtisadiyyatının həcmi daha böyük olar (Friedrich və b.1999).

Nağd pula tələb modelində kölgə iqtisadiyyatının yaranmasının yeganə səbəbi kimi yüksək vergi dərəcələrinin göstərilməsi metodun digər mənfi tərəfi kimi qeyd olunur. Belə ki, qanunvericiliyin mürəkkəbliyi, vergi ödəyicilərinin davranışı, vergi əxlaqı kimi digər səbəblər kölgə iqtisadiyyatının miqyasına təsir edir. Werner Pommerehne və Friedrich Schneiderin 1985-ci ildə ABŞ üçün apardıqları tədqiqatda vergi qanunvericiliyin mürəkkəbliyi, vergi əxlaqsızlığı (tax immorality), minimum əmək haqqı kimi faktorlarda modelə sərbəst dəyişənlər kimi daxil edilmişdir. Nəticədə, kölgə iqtiasdiyyatının 60-70%-nin vergi yükü hesabına baş verdiyi üzə çıxmışdır. Bundan başqa, rəsmi və kölgə iqtisadiyyatında pulun dövriyyə sürətinin eyni olmasıda bəzi tədqiqatçılar tərəfindən tənqidlə qarşılanır (Friedrich və b.1999).

Yuxarıda qeyd olunan tənqidlərə baxmayaraq, Tanzi metodu vasitəsilə kölgə iqtisadiyyatının miqyasının qiymətləndirilməsi üçün zəruri məlumatların əlçatan olması bu sahənin tədqiqatçıları tərəfindən hal-hazıradək ən çox müraciət olunan model hesab olunur.

Azərbaycanda kölgə iqtisadiyatının həcmini müəyyənləşdirmək üçün çoxdəyişənli xətti reqressiyaya əsaslanan nağd pula tələb modelindən istifadə edəcəyik. Modelin funksiyası aşağıdakı kimidir.

$$` \quad CC/M_2 = B_0 + B_1(V/Y) + B_2 Y_a + ..+ B_3 D_f + B_4 (CC/M_2)_{t-1} + \varepsilon \qquad (2)$$

CC=dövriyyədə olan nağd vəsaitlər
M_2=M_1+müddətli depozitlər
V= Vergi daxilolmaları
Y= Ümumi daxili məhsul (ÜDM)
Y_a=Adambaşına düşən real ÜDM
D_f =Müddətli depozitlərin real faiz dərəcələri (nominal faiz dərəcəsi –infilyasya dərəcəsi)

Modelin asılı dəyişəni dövriyyədə olan nağd vəsaitlərin M_2 pul kütləsinə nisbəti götürülmüşdür. Sərbəst dəyişənlər isə vergi daxilolmalarının ÜDM-ə nisbəti, adambaşına düşən real ÜDM, müddətli depozitlərin real faiz dərəcələri və asılı dəyişənin gecikdirilmiş dəyəridir. Aşağıda modelə daxil edilmiş dəyişənlərin nəzəri cəhətdən əsaslandırılması qeyd olunmuşdur.

Nəzərə alsaq ki, nağd pula tələb modelinin fərziyyəsində vergi daxilolmaları artıqca vergi ödəyiciləri nağd vəsaitlərdən istifadə etməklə vergidən yayınmağa meyilli olurlar və belə olan halda nağd vəsaitlərə tələb artdığına görə dövriyyədə olan nağd vəsaitlərin M_2 pul kütləsinə nisbətinin artması gözlənilir. Bununla əlaqədar olaraq, modelin asılı olmayan dəyişənlərindən olan vergi daxilolmalarının ÜDM-ə nisbətinin dəyəri (V/Y) asılı dəyişənlə (CC/M_2) müsbət korrelyasiyada olması nəzərdə tutulur.

Yüksək sosial-iqtisadi inkişafın əsas göstəricisi hesab olunan adambaşına düşən real ÜDM-in (Y_a) artımı dövriyyədə olan nağd pulların miqdarını artırması gözlənilir.

Müddətli depozitlərin real faiz dərəcələrinin (D_f) yüksək olması nağd pulları sərəncamda saxlamağın alternativ xərclərinin qaldırır və nəticədə nağd vəsaitlərə tələb azalır. Nəticə etibarilə, real faiz dərəcələrinin artımı dövriyyədə olan nağd pulların həcmini aşağı salır.

Dövriyyədə olan nağd vəsaitlərin M_2 pul kütləsinə nisbətinin gecikdirilmiş dəyəri $(CC/M_2)_{t-1}$ cari ildə nağd pul dövriyyəsinin əvvəlki illə əlaqəsini tapmaq üçün modelə daxil edilmişdir.

Nağd pula tələb modelinin metodologiyası nəzərdən keçirildikdən sonra kölgə iqtisadiyyatını və vergidən yayınmanı hər il üzrə müəyyən etmək üçün yuxarıdakı reqressiya modeli vergi ilə birlikdə $(CC/M_2)_v$ və vergisiz $(CC/M_2)_z$ qiymətləndirilir. Bu iki qiymətləndirmə arasındakı fərq vergidən yayınmaq üçün sərəncamda qalan nağd vəsaitləri proqnoz edir və kölgə iqtisadiyyatında dövr edən nağd vəsaitlər hesab olunur. Kölgə iqtisadiyyatında dövr edən nağd pulların müəyyən olunması düsturu aşağıdakı kimidir.

Kölgə iqtisadiyyatındakı nağd pullar= $[(CC/M_2)_v - (CC/M_2)_z] \times M_2$ (3)

` $(CC/M_2)_v = B_0 + B_1(V/Y) + B_2Y_a + ..+B_3D_f+B_4(CC/M_2)_{t-1}$

$(CC/M_2)_z = B_0 + B_2Y_a + ..+B_3D_f+B_4(CC/M_2)_{t-1}$

Kölgə iqtisadiyyatındakı nağd pullar=$[[B_0 + B_1(V/Y) + B_2Y_a + ..+B_3D_f+B_4(CC/M_2)_{t-1}]-$
$[B_0 + B_2Y_a + ..+B_3D_f+B_4(CC/M_2)_{t-1}]] \times M_2$


Empirik nəticə

«Eviews 10» ekonometrik proqram təminatı vasitəsilə nağd pula tələb modeli ən kiçik kvatratlar üsulu ilə qiymətləndirilmişdir.


$$CC/M_2=0.50-1.07(V/Y)-1.62(Y_a)- 0.04(D_f)+0.55(CC/M_2)_{t-1}$$

Modelin ilk şərtlərindən biri dəyişənlərin stasionarlıq şərtidir. ADF testi dəyişənlərin 95% inamla stasionarlığı inkar etmir. Modeli ən kiçik kvadratlar üsulu qiymətləndirilməsi nəticəsində asılı olmayan dəyişənlərin təsiri müəyyənləşmişdir. Reqressiya qalıqları stasionardır. Bu isə modelin stabil olduğunu göstərir. Durbin –Uatson statistikasının 2-yə yaxın olması qalıqlarda avto-korrelyasiya olmadığını göstərir. R-kvadratının 87% təşkil etməsi modelə daxil edilmiş müstəqil dəyişənlərin adekvatlığını göstərir. Bundan başqa modelin və onun dəyişənlərinin əmsallarının stabilliyini qiymətləndirmək məqsədilə «CUSUM» testləri həyata keçirilmişdir (Jeffrey 2003).

Qrafik 1. Modelin qalıqlarının normallığını qiymətləndirən «Residuals» testinin nəticəsi



Qrafik 2. Modelin stabilliyini qiymətləndirən «CUSUM» testinin nəticəsi



1995- 2018-ci illərin məlumatları əsasında qurulmuş reqressiya tənliyinin bütün şərtləri test edilmiş və modelin adekvatlığı təsdiq olunmuşdur. Bundan sonra, modelin dəyişənlərin əmsalına baxdıqda məlum olur ki, tənliyə sərbəst dəyişən kimi daxil edilmiş müddətli depozitlərin real faiz dərəcələrinin (D_f) və dövriyyədə olan nağd vəsaitlərin M_2 pul kütləsinə nisbətinin gecikdirilmiş dəyərinin $(CC/M_2)_{t-1}$ əmsalları gözləntilərə uyğun nəticə vermişdir. Lakin, nağd pula tələb modelinin kölgə iqtisadiyyatının miqyasını müəyyən etmək üçün əsas parametri hesab olunan vergi daxilolmalarının ÜDM-ə nisbətinin dəyəri (V/Y) asılı dəyişənlə (CC/M_2) müsbət vektorda hərəkət etməsi gözləntisi özünü doğrultmadı. Belə ki, qeyd olunan sərbəst dəyişənin əmsalının -1.07 təşkil etməsi vergi daxilolmalarının ÜDM-ə nisbətinin dəyəri (V/Y) artıqdca dövriyyədə olan nağd vəsaitlərin azalması nəticəsinə gətirib çıxarır. Bu isə Vito Tanzinin nağd pula tələb modelinin əsas hipotezi hesab olunan vergi daxilolmaları artıqca dövriyyədə olan nağd pullara tələb yüksəlir və nağd vəsaitlər kölgə iqtisadiyyatının əsas vasitəsidir prinsipi ilə uyğunlaşmır. Nağd pula tələb modelinə əsasən Azərbaycanda kölgə iqtisadiyyatının müəyyən olunmamasının səbəbi iqtisadi genişlənmə dövründə ölkənin fiskal siyasətinin pro-tsiklik istiqamətdə olmasıdır (Quliyev 2018). Daha aydın desək, bum dövründə dövlət xərclərinin ekspansiyası (bu zaman dövriyyədə olan nağd vəsaitlər çoxalır) və büdcənin vergi daxilolmalarının azalması, resessiya dövründə isə xərclərin azalması (bu zaman dövriyyədə olan nağd vəsaitlər azalır) və vergi daxilolmalarının artımı dövriyyədə olan nağd pul kütləsi ilə vergi daxilolmarı arasında mənfi korrelyasiyaya gətirib çıxarmışdır. Aldığımız nəticənin düzgünlüyünü yoxlamaq məqsədilə, əvvəllər Azərbaycanda Tanzi metodu vasitəsilə tədqiqatlar aparmış Himayədar Araşdırmalar Mərkəzi, Fredrix Şinayder və Elşən Bağırzadənin təhlillərinə nəzər salınmışdır. Məlum olmuşdur ki, Himayədar Araşdırmalar Mərkəzinin 1995-2002-ci illəri əhatə edən tədqiqatında Azərbaycanda kölgə iqtisadiyyatı rəsmi ÜDM-in ortalama 86%-ni, Fredrix Şinayderin 1999-2005-ci illər üzrə araşdırmasında kölgə iqtisadiyyat rəsmi ÜDM-in ortalama 60.6%-ni, Elşən Bağırzadənin 1996-2007-ci illəri əhatə edən tədqiqatında kölgə iqtisadiyyatı rəsmi ÜDM-in ortalama 67%-ni təşkil etmişdir (Bağırzadə 2008). Qeyd olunan hər üç tədqiqat üzrə Azərbaycanda kölgə iqtisadiyyatının yüksək səviyyədə müaşhidə olunması araşdırmaların 2007-ci ilə qədər dövrü əhatə etməsi və bu dövr üzrədə dövriyyədə olan nağd pul kütləsi ilə vergi daxilolmaları arasındakı korrelyasiyanın müsbət vektorda olmasıdır.

NƏTİCƏ

Qeyd etməliyik ki, 2018-ci ilin sonlarında Vergi Məcəlləsinə edilmiş dəyişikliklər növbəti illərdə Azərbaycanda kölgə iqtisadiyyatının miqyasının azaldılmasına öz müsbət təsirini göstərəcəkdir.

Bununla belə kölgə iqtisadiyyatı ilə mübarizə davamlı olmalı və mütəmədi olaraq kölgədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qanunvericilik çərçivəsində işləmədiklərinin səbəbləri araşdırılmalıdır. Vergi növləri üzrə vergi yükləri təhlil olunmalı və lazım olduğu hallarda çevik şəkildə Vergi Məcəlləsinə dəyişiklik edilərək vergi yükü azaldılmalıdır. Belə ki, iqtisadiyyatın inkişaf və resessiya dinamikasına uyğun fiskal siyasət yürüdülməsi və buna adekvat olaraq vergi tədiyyələri üzrə vergi dərəcəsi təyin olunması arzu olunandır. Buna baxmayaraq, öz fəaliyyətlərini yenədə qanun çərçivəsində formalaşdırmayan vergi ödəyiciləri vergi nəzərati tədbirləri zamanı ən sərt şəkildə cəzalandırılmalıdır.

Sevindirici haldır ki, son dövrlərdə ümumilikdə ölkə üzrə aparılan iqtisadi islahatlar şəffaflaşma proseslərini sürətləndirir, buda nəticə etibarilə kölgə iqtisadiyyatını azaldır və dayanıqlı iqtisadi inkişafı təmin edir. Eyni zamanda apardığımız tədqiqatda aşağıdakı əldə olunmuş nəticələri xüsusi vurğulamaq istəyərdik:

- ✓ Kölgə iqtisadiyyatı bütün ölkələrə xas xüsusiyyətdir və qlobal xarakter daşıyır. Dünyanın ən yüksək inkişaf etmiş ölkələrində belə kölgə iqtisadiyyatına rast gəlinir.
- ✓ Nağd pul nisbəti metodu ilə aparılmış qiymətləndirmədə Azərbaycanda kölgə iqtisadiyyatının miqyası 1991-2004-cü illərdə orta illik rəsmi ÜDM-in 54%-ni təşkil etmişdir.
- ✓ Azərbaycanda kölgə iqtisadiyyatının miqyası iqtisadiyyatın genişləndiyi dövrdə ən yüksək həddə çatmışdır. Belə ki, 2005-2014-cü illərdə kölgə iqtisadiyyatı rəsmi ÜDM-in ortalama 62%-ni təşkil etmişdir.
- ✓ 2015-2018-ci illər əhatə edən post-neft dövründə kölgə iqtisadiyyatının miqyası əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə azalmışdır. Bu dövr üzrə kölgə iqtisadiyyatının orta illik göstəricisi rəsmi ÜDM-in 43%-ni təşkil etmişdir.
- ✓ 2018-ci ilin əvvəllərindən vergi inzibatçılığında tətbiq olunan yeni yanaşmalar və vergi sistemində şəffaflığın təmin edilməsi nəticəsində 2018-ci ildə kölgə iqtisadiyyatı rəsmi ÜDM-in 31%-ni təşkil etməklə 1993-cu ildən sonra ən aşağı dəyər almışdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Vergilər Nazirliyi. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər haqqında məlumat. http://www.taxes.gov.az/VM2019/VM2019.pdf (Daxilolma tarixi: 10.08.2019)
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Dövlət büdcəsinin vergi daxilolmaları haqqında məlumat. https://www.stat.gov.az/source/finance/ (Daxilolma tarixi: 10.08.2019)
3. Azərbaycan Respublikası Mərkəzi Bankı. Pul aqreqatları haqqında məlumat. https://www.cbar.az/page-42/monetary-indicators (Daxilolma tarixi:10.08.2019)
4. Bağırzadə E. Rəsul (2007). "Gizli iqtisadiyyatın kəmiyyət qiymətləndirməsinin Gutmann metodu və Azərbaycan üzrə tətbiqi imkanları". AMEA İqtisadiyyat İnstitutu "Milli iqtisadiyyatın problemləri". II Buraxılış, Bakı-Elm-2007, səh. 43-55
5. Bağırzadə E. Rəsul (2008). "Nakit Para Talebi veya Tanzi Yöntemiyle Azerbaycan Kayıtdışı Ekonomisinin Tahmini Üzerine Bir Deneme ". Uluslararası Balkanlarda Sosyal Bilimler Konqresi.
6. Friedrich Schneider, Dominik Enste (1999). "Shadow economies around the world – size, causes, and consequences". CESifo Working Paper, №. 196.
7. Gutmann, P.M. (1977). "The Subterranean Economy", Financial Analysts Journal, 33, pp. 24-27.

8. Guliyev H. Eldeniz (2018). “Fiscal Policy Challenges: The Case of Azerbaijan”. Економіка та держава. № 9, Стр 79-86.
9. Hildegart Ahumada, Facundo Alvaredo, Alfredo Canavese (2008). “The monetary method to measure the shadow economy: Forgotten problem of the initial conditions”, Elsevier, Economics Letters, vol 101, pp.97-99.
10. Jeffrey M.Wooldridge (2003). “Introductory Econometrics: A Modern Approach”. 2nd edition.
11. Leandro Medina, Friedrich Schneider (2018). “Shadow Economies Around the World: What Did We Learn Over the Last 20 Years?” International Monetary Fund. № 18/17.
12. Tanzi, V. (1980), “The Underground Economy in the United States: Estimates and implications”, Banca Nazionale del Lavoro, Vol. 135 (4), pp. 427-453.
13. Tanzi, V. (1983), “The Underground Economy in the United States: Annual estimates, 1930-1980” , IMF-Staff Papers, Vol. 30(2), pp.283-305.
14. The Organisation for Economic Co-operation and Development. Reducing opportunities for tax non-compliance in the underground economy. http://www.internationalhousingassociation.org/fileUpload_details.aspx?contentTypeID=3&contentID=254946&subContentID=695732&channelID=38488 (Daxilolma tarixi: 01.06.2019)

Гулиев Х.Э., докторант, UNEC

Оценка объемов теневой экономики в Азербайджане

Аннотация

Цель исследования: определить размер теневой экономики в Азербайджане с использованием метода коэффициента наличности и модели спроса на наличные деньги.

Методология: эконометрический анализ.

Основные результаты: Теневая экономика является особенностью всех стран и носит глобальный характер. Даже в самых развитых странах мира наблюдается теневая экономика. Масштаб теневой экономики в Азербайджане был определен методом денежного коэффициента и показана его динамика по годам. Согласно методу коэффициента денежной наличности, теневая экономика в Азербайджане в 2018 году была самой низкой величиной с 1993 года, составив 31% от официального ВВП. В течение анализируемого периода было невозможно определить размер теневой экономики с помощью модели спроса на наличные из-за проактивности фискальной политики.

Ключевые слова: теневая экономика, уклонение от уплаты налогов, монетарный подход, денежные средства, регрессионная модель.

Guliyev H.E., doctoral student, UNEC

Estimating the size of the shadow economy in Azerbaijan

Abstract

Objective: Estimating the size of shadow economy in Azerbaijan through currency ratio method and currency demand model.

Methodology: Econometric analysis.

Main results: The shadow economy is a global challenge and observed in all countries. Even highly developed countries experience the shadow economy. Through the currency ratio method the scale of shadow economy is determined and its dynamics has been indicated by years. Based on the currency ratio method, the shadow economy has comprised 31% of GDP in 2018 which is lowest value since 1993. As a result of procyclical fiscal policy during the estimated period we fail to find the dimension of shadow economy by currency demand model.

Keywords: shadow economy, tax evasion, monetary approach, cash, regression model.